# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
# VƏ
# SERBİYA ELMLƏR VƏ İNCƏSƏNƏT AKADEMİYASI ARASINDA ELM VƏ TEXNOLOGİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA

## S A Z İ Ş

Azərbaycan Milli Elmlər Akademiyası və Serbiya Elmlər və İncəsənət Akademiyası (bundan sonra "Tərəflər" adlandırılacaq),

Azərbaycan Respublikası və Serbiya Respublikası arasında elmi əlaqələrin bərabərlik və qarşılıqlı maraq əsasında daha da möhkəmləndirmək arzusu ilə;

Iki dövlət arasında ikitərəfli əlaqələrin tərkib hissəsi kimi elm və texnologiya sahəsində əməkdaşlığın vacibliyindən çıxış edərək;

aşağıdakılar haqqında razılığa gəldilər:

### Maddə 1

Tərəflər öz milli qanunvericiliyə uyğun olaraq elm və texnologiya sahələrində, eləcə də hər iki ölkənin tədqiqat mərkəzləri arasında əməkdaşlığın yaradılması üçün şərait yaratmalıdır.

### Maddə 2

Bu Sazişin əsasında Tərəflər arasında elmi-texniki əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

-birgə tədqiqat layihələri üzrə iş;

-alim və mütəxəssislərin mübadiləsi, razılaşdırılmış birgə fəaliyyət çərçivəsində öz peşəkar bacarıqlarının təkmilləşdirilməsinin təşviqi;

- elmi-tədqiqat institutları, universitetlər, kitabxanalar və arxivlərdə tədqiqat işlərinin həyata keçirilməsinə köməklik göstərilməsi;

- Qarşılıqlı institutlararası sazişlərin imzalanması yolu ilə maraq göstərən tədqiqat institutları və iki ölkənin təşkilatları arasında əməkdaşlığın təşviqi;

- Birgə qarşılıqlı və faydalı seminarlar, simpoziumlar, elmi konfranslar, görüşlər və elmi-texniki sərgilərin keçirilməsi;

- Elmi əsərlər və informasiya mübadiləsinin təşviqi.

### Maddə 3

Birgə elmi-tədqiqat işlərinin nəticələri əsasında yaradılmış əqli mülkiyyət hüquqlarının qorunması məsələsi, həmçinin onların istifadəsi şərtləri və ardıcıllığı və başqa elmi-texniki işlərin görülməsində əldə olunan məlumatlardan

istifadə olunması məsələləri Tərəflərin müvafiq qurumların arasında ayrıca müqavilə bağlamaq yolu ilə razılaşdırılmalıdır.

## Maddə 4

Tərəflər arasında birbaşa əməkdaşlıq yolu ilə əldə edilən elmi-tədqiqat nəticələri digər Tərəfin hər hansı bir xüsusi yazılı razılığı olmadan, hər bir Tərəfin öz əsasnaməsinə uyğun qaydada və formada ictimailəşdirilə bilər.

Bir tərəf elmi iş və əməkdaşlığın nəticələrinin təsdiq olunmuş formada nəşrinə önəm verirsə, digər tərəfi yazılı şəkildə əvvəlcədən xəbərdar etməlidir. Əgər elmi tədqiqat nəticələri digər elmi qurumlar arasında əməkdaşlıq vasitəsilə əldə edilirsə, bu məsələlər onların qarşılıqlı razılığı ilə tənzimlənir.

## Maddə 5

Bu Sazişin həyata keçirilməsi zamanı meydana çıxan mübahisəli məsələlər Tərəflər arasında aparılan danışıqlar yolu ilə həll edilməlidir.

## Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca əlavə və dəyişikliklər edilə bilər.

## Maddə 7

Bu Saziş və onun Əlavələri hər biri iki nüsxədə, serb, azərbaycan və ingilis dillərində olmaqla qeyri-müəyyən müddətə bağlanılır və bütün mətnlər eyni qüvvəyə malikdir.

Bu Sazişin izahı ilə bağlı fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

## Maddə 8

İstənilən Tərəf, altı ay öncədən yazılı bildiriş göndərmək şərti ilə, bu Saziş və onun Əlavələrini ləğv edə bilər.

## Maddə 9

Bu Saziş və onun Əlavələri imzalandığı gündən qüvvəyə minir.

| Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən | Serbiya Elmlər və İncəsənət Akademiyası tərəfindən |
| --- | --- |
| Akademik Akif Əlizadə | Akademik Nikola Haydin |
| Prezident | Prezident |

СРПСКА АКАДЕМИЈА НАУКА И УМЕТНОСТИ БЕОГРАД
Бр. 402/1
01. 12. 2014. год.
БЕОГРАД